# Onun ən böyük mükafatı tamaşaçı sevgisi idi



Bu gün də böyük maraqla baxılan kinomuzda Mirzə Səfər, Dədə Qorqud, Bəxtiyar, Qəmərlinski və başqa neçə-neçə unudulmaz obrazlar yaradan Həsən Ağaməmməd oğlu Məmmədov 1938-ci ilin noyabrında Salyan rayonunda dünyaya göz açmışdır.

1956-cı ildə rayondakı 2 nömrəli orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Fizika-riyaziyyat fakültəsinə qəbul olunan Həsən ikinci kursda universitetdən çıxmış və bir müddət müxtəlif teatrların yardım heyətində aktyorluq etmişdir. Sonra Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutuna qəbul olmuşdur. Tələbəlik illərində müəyyən fasilələrlə radioda işləmiş Həsən Məmmədov 1962-ci ildə məşhur səhnə xadimi Mehdi Məmmədovun kursunu bitirmiş və təyinatla Akademik Milli Dram Teatrına göndərilmişdir. Elə həmin ildən kinoda da fəaliyyət göstərmişdir.

1962-ci il sentyabrın 10-dan bu qədim sənət ocağının aktyor truppasına üzv olmuş Həsən Məmmədov ilk rollarından yüksək bacarığı və istedadı ilə fərqlənmişdir. 1962-ci ildən başlayaraq o, il ərzində kino çəkilişləri ilə əlaqədar müxtəlif zamanlarda dəfələrlə teatrdan işdən çıxmış və yenidən kollektivə qayıtmışdır. İllər keçdikcə kino aktyoru kimi məşhurlaşan və zəngin təcrübə qazanan Həsən Məmmədov 1972-ci ildə köçürmə yolu ilə akademik teatrdan çıxaraq "Azərbaycanfilm" Kinostudiyasına işə qəbul edilmişdir. Həsən Məmmədov böyük tamaşaçı sevgisi qazanmış 50-dən çox müxtəlif filmdə çəkilmişdir.

Gələcəyin məşhur aktyoru elə ilk günlərdən bacarığı və istedadı ilə böyük sənətkarların diqqətini cəlb etmişdir. Həsən Məmmədov həm şəxsiyyət, həm də aktyor kimi bənzərsiz idi. Peşəkarlığı ilə seçilən aktyor hələ birinci kursda oxuyanda filmə çəkilməyə dəvət alır. Bu, hər tələbəyə nəsib olmayan xoşbəxtlik idi. "Böyük dayaq" filmində çəkildiyi ilk rolu - Qaraş obrazı ilə kino aktyoru kimi özünün tükənməz potensiala malik olduğunu sübut etmişdir. Aktyorun böyük rollara gedən yolu da bu filmdən başlamışdır.



Yaratdığı rolların xarakterik xüsusiyyətləri eyni zamanda həmin obrazların qəhrəmanlardan ibarət olması idi. Milli kinomuzun ən maraqlı və yaddaqalan filmlərində onun adı birincilər sırasında yer alırdı. "Böyük dayaq"da Qaraş, "Arşın mal alan"da Əsgər, "Gün keçdi"də Oqtay, "Arxadan vurulan zərbə"də Qəmərlinski, "Bizi bağışlayın"da Nəriman, "Birisi gün gecə yarısı"nda Baba Əliyev, "İstintaq"da Murad, "Dədə Qorqud"da Dədə Qorqud, "Axırıncı aşırım"da Abbasqulu ağa Şadlinski, "Yeddi oğul istərəm"də Bəxtiyar, "Bir cənub şəhərində" Murad rolları ilə Azərbaycan kinosunun qızıl fondunu təşkil edən obrazlar qalereyası yaradan Xalq artisti Həsən Məmmədov "İstintaq" bədii filmindəki Murad roluna görə SSRİ Dövlət mükafatına, "Birisi gün gecə yarısı" ekran əsərindəki Baba Əliyev obrazına görə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülmüşdür. 1970-ci ildə Respublika Lenin Komsomolu mükafatı laureatı olan aktyor ifa tərzi ilə ekran həyatı verdiyi parlaq xarakterlər, həmçinin teatr səhnəsində oynadığı surətlərlə ölkəmizin kino xəzinəsini zənginləşdirmişdir.

Həsən Məmmədovun qazandığı mükafatlar bunlarla tamamlanmır. Kino sənətimizdə və teatrda göstərdiyi xidmətlərinə görə o, SSRİ Dövlət mükafatına ("İstintaq" bədii filmindəki Murad roluna görə) və "Şöhrət" ordeninə layiq görülmüşdür. Aktyor Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü idi.

Görkəmli aktyor Həsən Məmmədov 2003-cü ildə vəfat etmiş və II Fəxri xiyabanda dəfn edilmişdir. Sənət dostu Rafiq Əzimov teatr və kino aləminin Həsən Məmmədov kimi aktyoru itirməsini ümumən incəsənətimiz üçün böyük itki sayaraq deyirdi ki, o, özü ilə kinonun ən yaxşı illərini, dadını-duzunu apardı: "Həm də adam çox çətinlik çəkir ki, uzun illər Həsən Məmmədov kimi sənətkarla kinoda, teatrda bir yerdə işləyəsən, bir gün gözünü açasan ki, o, yoxdu. Bu itki ilə barışmaq bizim üçün ağırdır".

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mədəniyyətimizin inkişafına böyük diqqət və qayğı göstərir. Göstərilən bu qayğı və diqqət görkəmli aktyor Həsən Məmmədov kimi yeni nəsil sənətkarların yetişməsinə şərait yaradır. İstedadlı gənc nəsil də öz növbəsində kinomuzu və teatrımızı daha da zənginləşdirir. Çünki onların Həsən Məmmədov yaradıcılığı kimi məktəbi var.

Aktyor üçün isə ən böyük mükafat tamaşaçı sevgisidir. Həsən Məmmədov bu sevgini hələ sağlığında qazanmışdır. Ona olan tamaşaçı sevgisi heç vaxt tükənməyəcək. Bu gün 85 yaşı tamam olan Azərbaycan kinosunun ulduzu Həsən Məmmədov heç vaxt unudulmayacaq, daim xatırlanacaq, yad ediləcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 23 noyabr, № 255.- S.15.